Funded by
the European Union

EU4Environment
Green Economy in Eastern Partner Countries

# Gəncə şəhərinin Baş Planının layihəsi üzrə həyata keçirilən Pilot Strateji Ekoloji Qiymətləndirilməyə dair İctimai Dinləmə

**Tədbirin Gündəliyi**
**28 sentyabr 2023,**
**Bakı vaxtı ilə 09.30-13.00**

**Leon Hotel**
**Ruzigar Qasımov küç. 73**
**Gəncə şəhəri, Azərbaycan**

Bu tədbir Gəncə şəhərində fiziki görüş şəklində təşkil olunacaq. O, həmçinin iştirakçılara Zoom platformasından istifadə etməklə qoşulma imkanını təmin edəcək. Gəncədə olmayan/şəxsən iştirak edə bilməyən dəvət olunmuş iştirakçılar platformaya qoşulmaq üçün əlaqə məlumatları ilə təmin olunacaq.

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

# Gəncə şəhərinin Baş Planının layihəsi üzrə həyata keçirilən Pilot Strateji Ekoloji Qiymətləndirilməyə dair İctimai Dinləmə 28 sentyabr 2023, Bakı vaxtı ilə 09.30-13.00

## Qısa məlumat

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "EU4Environment" proqramı çərçivəsində Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (UNECE) Azərbaycan da daxil olmaqla Şərq Tərəfdaşlığı ölkələrinə Strateji Ekoloji Qiymətləndirmə (SEQ) və transsərhəd konteksdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) üzrə hərtərəfli potensialın yaradılması və institusional quruculuqda və 2019-cu ildən bu sahədə hüquqi islahatların yekunlaşdırılmasında yardım edir.

2022-ci ildən etibarən Azərbaycanda SEQ-in praktiki tətbiqi imkanlarını daha da artırmaq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin (DŞAK) müraciəti əsasında UNECE Gəncə şəhəri üçün hazırlanmaqda olan baş plan layihəsi üçün SEQ pilot layihəsinin həyata keçirilməsinə dəstək verib. Pilot SEQ layihəsi şəhərsalmada SEQ-in tətbiqi üçün praktiki təlimi (buraya analitik və konsultativ tapşırıqlar və lazım gəldikdə, SEQ ilə bağlı hesabatların hazırlanması və keyfiyyətinə nəzarət üzrə metodiki təlimlər daxildir) təmin edir. Bu, SEQ prosedurları üzrə milli bacarıqların daha da artırılmasına və onun sektora xas faydalarını nümayiş etdirərək şəhərsalmada SEQ haqqında məlumatlılığın artırılmasına dəstək verir.

İctimaiyyətin iştirakı effektiv SEQ-in əsas tələblərindən biridir. O, qərarların qəbulunun şəffaflığını və etibarlılığını artıra, planın hazırlanması prosesində bütün müvafiq məsələlərin nəzərdən keçirilməsinə kömək edə və bu prosesdə ictimaiyyətin fikirlərinin vaxtında nəzərə alınmasına imkan verə bilər.

İctimai dinləmə tədbiri SEQ Hesabatının layihəsi və onun əlaqəli olduğu baş plan layihəsi ilə bağlı ictimaiyyətin iştirakını dəstəkləmək üçün ETSN və UNECE tərəfindən DŞAK və Gəncə Şəhər İcra Hakimiyyətinin iştirakı ilə təşkil olunur. Onun təşkili "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğundur.

## İctimai dinləmənin məqsədləri:

- İctimaiyyətə/yerli maraqlı tərəflərə Gəncə şəhərinin Baş Plan layihəsi və bununla bağlı ilkin SEQ Hesabatının layihəsi haqqında daha çox məlumat əldə etmək və şərh etmək imkanı vermək;
- SEQ Hesabatının ilkin layihəsini və onun əsas nəticələrini təqdim etmək və müzakirə etmək;
- İctimaiyyəti/yerli maraqlı tərəfləri öz şərhlərini təqdim etmək vasitələri və imkanları haqqında məlumatlandırmaq.

## Gözlənilən nəticə və yekunlar:

- Tədbirdən irəli gələn SEQ nəticələrinə dair təklif və şərhlər SEQ Hesabatının daha da

dəqiqləşdirilməsi və yekunlaşdırılması zamanı, o cümlədən Gəncə şəhərinin Baş Planının yekunlaşdırılması üçün tövsiyələrin formalaşdırılması zamanı nəzərə alınacaq.

- Baş Plan layihəsinin məzmunu ilə bağlı təklif və iradlar Baş Planın yekunlaşdırılması zamanı nəzərə alınacaq.
- Gəncə-Qazax iqtisadi rayonundaki maraqlı tərəflər bu pilot SEQ layihəsindən və regiondaki ilk SEQ üzrə ictimai dinləmədən əldə etdikləri təcrübələri gələcəkdəki SEQ proseslərinin icrasında istifadə etmək imkanı qazanacaq.

## İştirakçılar

Tədbirdə 40-dan çox iştirakçını bir araya gətirmək məqsədilə Gəncə şəhərindəki QHT-lər, dövlət qurumları, bələdiyyə nümayəndələri, elmi dairələr, SEQ ilə məşğul olan şəxslər/ekspertlər və digər müvafiq maraqlı tərəflərin nümayəndələri dəvət olunacaq.

## Praktiki məlumat

Tədbir 28 sentyabr 2023-cü il tarixində, yerli vaxtla saat 09.30-13.00-da, Gəncə şəhərində yerləşən Leon Hoteldə təşkil olunacaq. Tədbirin dilləri ingilis və azərbaycan dilləridir. İngilis dilindən azərbaycan dilinə və əksinə sinxron tərcümə təmin ediləcək.
Bundan əlavə, tədbirə Zoom platformasından istifadə etməklə qoşulma imkanı təmin ediləcək. Gəncədə olmayan/şəxsən iştirak edə bilməyən dəvət olunmuş iştirakçılar platformaya qoşulmaq üçün əlaqə məlumatları ilə təmin olunacaqlar.

## "EU4Environment" haqqında

"Avropa İttifaqı Ətraf Mühit Naminə" ("EU4Environment"– Yaşıl İqtisadiyyat) Fəaliyyəti ətraf mühitlə bağlı fəaliyyətləri dəstəkləməklə, yaşıl inkişaf imkanlarını nümayiş etdirmək və ortaya çıxarmaqla və ekoloji risklərin və təsirlərin daha yaxşı idarə olunması üçün mexanizmləri müəyyənləşdirməklə Şərq Tərəfdaşlığı ölkələrinin təbii sərvətlərini qoruyub saxlamağa və insanların ekoloji rifahını artırmağa kömək edir.

O, Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və beş Tərəfdaş təşkilat - İƏİT, UNECE, UNEP, UNIDO və Dünya Bankı tərəfindən 2019-2024-cü illər ərzində 20 milyon avro büdcə ilə həyata keçirilir.

O, Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və beş Tərəfdaş təşkilat - İƏİT, UNECE, UNEP, UNIDO və Dünya Bankı tərəfindən 2019-2024-cü illər ərzində 20 milyon avro büdcə ilə həyata keçirilir.

Daha ətraflı məlumat üçün əlaqə saxlayın: EU4Environment@oecd.org.

Daha ətraflı məlumat üçün veb səhifəmizə baxın: www.eu4environment.org.

Xüsusilə UNECE tərəfindən həyata keçirilən SEQ və transsərhəd konteksdə ƏMTQ üzrə fəaliyyətlər haqqında əlavə məlumat üçün əlaqə saxlayın: leonid.kalashnyk@un.org

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin SEQ/ƏMTQ fəaliyyəti haqqında məlumat almaq üçün əlaqə saxlayın: aysel.rzayeva@eco.gov.az

## Gəncə şəhərinin Baş Planının layihəsi üzrə həyata keçirilən Pilot Strateji Ekoloji Qiymətləndirilməyə dair İctimai Dinləmə

**28 sentyabr 2023,**
**Bakı vaxtı ilə 09.30-13.00**

## Tədbirin Gündəliyi

| Bakı vaxtı ilə saatlar | Fəaliyyətlər |
|---|---|
| **09:00 – 09:30** | **Qeydiyyat**<br>Çay/Kofe |
| **09:30 – 09:45** | **Açılış və salamlama nitqləri**<br>• Xanım Aysel Rzayeva, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Şöbəsinin sektor müdiri, Espoo Konvensiyasının Milli Əlaqələndiricisi<br>• Şahnaz Bədəlova, Şəhərsalma və ərazilərin inkişafı şöbəsinin müdir müavini, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi<br>• Gəncə şəhəri İcra Hakimiyyətinin nümayəndəsi (tbc)<br>• Cənab Leonid Kalaşnik, EU4 Ətraf mühit proqramının Ətraf mühit məsələləri üzrə məsul şəxsi, UNECE-nin Layihə direktoru |
| **09:45 – 10:05** | **Gəncə şəhərinin Baş Planının layihəsinin təqdimatı**<br>Şahnaz Bədəlova, Şəhərsalma və ərazilərin inkişafı şöbəsinin müdir müavini, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| **10:05-10:45** | **Baş Planının layihəsi ilə bağlı sual-cavab**<br>Şahnaz Bədəlova, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| **10:45-11:00** | **Çay/Kofe fasiləsi** |
| **11:00-11:30** | **SEQ Hesabatının layihəsinin nəticələri ilə bağlı təqdimat**<br>UNECE-nin SEQ üzrə beynəlxalq eksperti cənab Mixal Musil və SEQ üzrə ekspert və qrup rəhbəri cənab Amin Məmmədov tərəfindən |
| **11:30-12:50** | **Nəticələrə dair müzakirə**<br>Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı xanım Aysel Rzayevanın moderatorluğu ilə |
| **12.50-13.00** | **Bağlanış nitqi**<br>Xanım Aysel Rzayeva, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| | |